**AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ ELMLƏR AKADEMİYASI**

**FƏLSƏFƏ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**MAHBOUB QHOLAM MOZHDEHJOU**

# ƏBU NƏSR ƏL-FƏRABİNİN İCTİMAİ-SİYASİ BAXIŞLARI

**7207.01 – "Sosial fəlsəfə"**

Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2018**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Fəlsəfə Kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər**: Fəlsəfə elmləri doktoru, professor,
əməkdar elm xadimi
**Həmid Rza oğlu İmanov**

**Elmi məsləhətçi**: Fəlsəfə üzrə elmlər doktoru, professor
Fərman Qəhrəman oğlu İsmayılov

**Rəsmi opponentlər:** Fəlsəfə üzrə elmlər doktoru, professor
Əlikram Mirhəsən oğlu Tağıyev

Fəlsəfə üzrə fəlsəfə doktoru
Elşən Əsgər oğlu Bayramzadə

**Aparıcı təşkilat**: **Bakı Slavyan Universiteti**

Müdafiə "__" "_________" 2018-ci il saat $16^{00}$ – da Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D 01.115 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az 1143, Bakı şəhəri, H.Cavid prospekti, 115. AMEA-nın Fəlsəfə İnstitutu, konfrans zalı.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" "___________" cü ildə göndərilmişdir.

**AMEA Fəlsəfə İnstitutunun
nəzdindəki D 01.115
Dissertasiya Şurasının elmi katibi
Fəlsəfə üzrə fəlsəfə doktoru, dos.** **S.A. Həsənova**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı:** Şərq peripatetizminin ilk böyük nümayəndəsi məşhur ərəb filosofu Yaqub əl-Kindi olsa da, bu təlimin mükəmməl sisteminin yaradıcısı türk mənşəli filosof və böyük alim Əbu Nəsr əl-Fərabi (870-950) olmuşdur. Müsəlman fəlsəfəsində Aristoteldən sonra "ikinci müəllim" (əl-Müəllim əs-sani) adı ilə tanınan bu böyük mütəfəkkirin zəngin nəzəri irsi müsəlman ölkələrində elmi-fəlsəfi fikrin inkişafında misilsiz rol oynamış, özündən sonra gələn bütün müsəlman filosoflarının yaradıcılıq fəaliyyətinə güclü təsir göstərərək sözün əsl mənasında orta əsrlərin mühüm paradiqmalarından birinə çevrilmişdir. Təbiətşünaslıq, riyaziyyat, mexanika, astronomiya, fəlsəfə və məntiq sahələrində dəyərli və misilsiz əsrlər yaratmış bu böyük alim və filosof haqqında qədim ərəb mənbələrinin birində deyilir: Əl-Fərabi türkdür, məşhur mütəfəkkirdir, müsəlman xalqlarının ən böyük filosofudur. Onlardan heç kəs öz elmində onun səviyyəsinə yüksəlməmişdir"[1].

Əl-Fərabinin yaradıcılıq silsiləsi zəngin və çoxşaxəli olmuş, onun hüdudlarında böyük filosofun fəlsəfə, etik, estetik, təbiətşünaslıq, məntiq, riyaziyyat və astronomiyaya dair baxışları özlərinə yer almışdır. Əl-Fərabinin fəlsəfi tədqiqatlar müstəvisinə çıxarıb həll etdiyi problemlər spektrində, müasirliyin dili ilə desək metodoloji problemlər də az əhəmiyyət kəsb etməmişdir. Bu baxımdan əl-Fərabi yaradıcılığından qırmızı xətlə keçən elmlərin təsnifatı problemi istər elmşünaslıq, istərsə də metodoloji baxımdan ciddi maraq doğurur.

Əl-Fərabi haqqında yuxarıda verdiyimiz qısa xülasədən məlum olur ki, zəmanəsinin bütün elmlərinə dərindən nüfuz etmək qabiliyyətinə malik olmuş bu böyük alimin yaradıcılıq diapozonu həddən ziyada geniş olduğundan ən mürəkkəb elmi problemlər belə onun yaradıcı təfəkkürünün predmetinə çevrilə bilmişdir.

Əl-Fərabinin yaşayıb yaratdığı dövrü zəmanəmizdən ayıran zaman kəsiyi min illərlə ölçülsə də aradan keçən müddətdə onun elmi-nəzəri irsinə maraq nəinki zəifləməmiş, hətta müxtəlif dövrlərdə yaşamış filosof və alimlər öz böyük sələflərinin nəzəri yaradıcılıq irsinə daima müraciət edərək onu müxtəlif rakurslardan təhlil etməyə çalışmışdır. Azərbaycan fəlsəfi fikir nümayəndələri də əl-Fərabi irsinə biganə qalmamış, onun fəlsəfi dünyagörüşünün ayrı-ayrı məsələlərini özlərinin tədqiqat obyektinə, fikir

[1] Şərq fəlsəfəsi. Bakı: BDU-nəşr, 1991. S. 63-76



predmetinə çevirmişlər. Lakin təəssüflə qeyd etməliyik ki, Azərbaycan respublikasında Fərabi irsi bütöv bir sistem kimi öyrənilməmiş, bu irsin bəzi məsələləri elmi tədqiqat mərkəzindən kənarda saxlanılaraq fikir predmetinə çevrilməmişdir. Bu deyilən irad əl-Fərabinin ictiami-siyasi görüşlərinə daha çox aid edilə bilər. Bu da təsadüfi deyil, belə ki, əl-Fərabinin əksər əsərləri ərəb və fars dillərində yazıldığından və onların əksəriyyəti azərbaycan və rus dillərinə tərcümə edilmədiyindən azərbaycan tədqiqatçıları onlardan istifadə edə bilməmişdir. Oxucuların istifadəsinə verilən bu dissertasiya işində biz İran vətəndaşı olaraq əl-Fərabinin İranda fars dilində çap olunmuş əsərlərinə söykənərək onun ictimai-siyasi baxışlarının fəlsəfi-metodoloji təhlilini verməyə çalışmışıq.

**Problemin işlənmə dərəcəsi:** qeyd edək ki, əl-Fərabinin ictimai-siyasi baxışları azərbaycan fəlsəfi fikrində xüsusi tədqiq predmeti kimi öyrənilməmişdir. Lakin bu o deməк deyildir ki, əl-Fərabi yaradıcılığı bütövlükdə tənqidi təlil sferasından tamamilə kənarda saxlanılmış, onun zəngin intellektual irsi ümumiyyətlə öyrənilməmişdir. İstər Yaxın və Orta Şərq alimləri, istərsə də Qərb dünyasının görkəmli fəlsəfi fikir adamları tarixən və dönə-dönə əl-Fərabi yaradıcılığına nəzər salmış, özünün intellektual zənginliyi və qabaqgörənlik fəhmi ilə insan ruhunu heyran qoyan bu fikir adamının şəxsiyyəti və heyrətamiz nəzəri yaradıcılığı haqqında dəyərli mülahizələr söyləmişlər.

Orta və Yaxın Şərq xalqlarının mədəni-fəlsəfi irsinin öyrənilməsi sahəsində yalnız Orta və Yaxın Şərq ölkələrində deyil, həm də digər ölkələlərdə, o cümlədən keçmiş Sovetlər Birliyində, müasir MDB məkanında, o cümlədən Azərbaycan respublikasında bir sıra maraqlı tədqiqatlar aparılmışdır. Biz keçmiş Sovetlər Birliyində və müasir MDB ölkələrində əsərləri Orta əsrlər müsəlman fəlsəfəsinin tədqiqinə həsr olunmuş alimlərin adlarını çəkə bilərik. Akad. B.B.Bartoldun, akad. E.E,Bertelsin, akad. Z.M,Bünyadovun, U.P.Petruşevskinin, A.A.Saqadayevin, M.M.Xeyrullayevin, A.K.Zakuyevin, V.İ.Bolomoyevin, H.R.İmanovun, A.X.Qasımjanovun, F.U.Eyvazovun, A.C.Cəfərovun, Z.Z.Göyüşovun və b. adlarını çəkə bilərik[2]. Bu baxımdan görkəmli

[2] İmanov H.R., Əhədov A. Orta əsrlərdə ərəb-müsəlman fəlsəfi fikri. Bakı, Ülvi həyat, 2008. 210 s.; Bünyadov Z.M. Azərbaycan Atabəylər dövləti. Bakı, Azərnəşr 1985. 338 s.; Бертельс Е.Э. Избранные труды. Суфизм и суфийская литература. М., Знание 1965. 524 с.; Касымжанов А.Х. Абу-Наср аль – Фараби. М., Мысль, 1982. 412 с.; Хейруллаев М.М. Фараби, эпоха и учение. Ташкент, 1975. 464 с.; Сагадеев А.В. Учения Ибн Рушда о соотношении философии, теологии и релегии и его истоки в трудах аль-Фараби. Научное творчество. М., Знание, 1975. 246 с.; Fakhry M. Ak-

azərbaycan filosofu Z.Məmmədovun 1994-cü ildə çap etdirdiyi "Azərbaycan fəlsəfəsi tarixi" kitabı yüksək məziyyətləri ilə fərqlənən qiymətli tədqiqat əsəridir[3].

Bu silsilədə Z.Z.Göyüşovanın 1983-cü ildə müdafiə etdiyi "Şərq mütəfəkkirlərinin (peripatetiklərinin) etik görüşləri" adlı dissertasiyanın və A.S.Cəfərovun 1997-ci ildə müdafiə etdiyi və qismən əl-Fərabinin də məntiqi görüşlərinə toxunan "Bəhmənyar Azərbaycanın idrak nəzəriyyəsi və məntiqi görüşləri" adlı namizədlik dissertasiyasının da aid edə bilərik. Bu baxımdan prof. H.R.İmanovun prof. A.Əhədovla birgə yazdıqları və 1998-ci ildə "Orta əsr islam Şərqində fəlsəfi fikir" başlığı altında çap etdikləri monoqrafiyası da özünün məzmunu zənginliyi və tədqiqat sferasının genişliyi ilə diqqəti çəkir. Monoqrafiyanın ayrıca bir bölməsi dissertasiya işinin əl-Fərabinin idrak, məntiq, varlıq və nəhayət, ictimai-siyasi baxışlarının tədqiqinə həsr olunmuşdur.

**Tədqiqatın obyekti və predmeti:** dissertasiyasının tədqiqat obyektinin əl-Fərabinin çox şaxəli fəlsəfi yaradıcılığı, predmetin isə ictimai – siyasi görüşləri, onların sistemli təhlili və müasirlik baxımından dəyərləndirilməsi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatda izlənən başlıca məqsəd müasir elmi və fəlsəfi biliyin nailiyyətləri əsasında Orta əsr Şərq fəlsəfəsinin, xüsusilə peripatetik fəlsəfənin mahiyyətini açıqlamaq, bu fəlsəfənin fəaliyyət göstərdiyi sosial mühitin xarakteristikasını vermək, Şərq peripatetizmi kontekstində əl-Fərabinin nəzəri-fəlsəfi irsinə diqqət yetirmək, onun etik görüşlərinin qısa xarakteristikasını vermək, Şərq peripatetizmi kontekstində əl-Fərabinin nəzəri-fəlsəfi irsinə diqqət yetirmək, onun etik görüşlərinin qısa xaraktersitikasının vermək və ən başlıcası əl-Fərabinin əsərlərinin təhlili əsasında onun ictiami-siyasi baxışlarının intensiv və ekstensiv təhlilini reallaşdırmaqdan ibarətdir.

İşdə irəli sürülən məqsəd aşağıdakı vəzifələrin reallaşdırılması yolu ilə həyata keçirilir:

əl-Fərabinin dünyagörüşünün formalaşdığı ictimai-siyasi mühit və onun ideya mənbələri təhlil edilir;

Farabi founder of islamic neoplatonism: his life works and inflence. Oxford: Oneworld Publications, 2002. 198 p.

[3] Məmmədov Z.C. Azərbaycanda XI-XII əsrlərdə fəlsəfi fikir. Bakı, İrşad 1978. 240 s.



- əl-Fərabinin fəaliyyət göstərdiyi ictimai-siyasi mühit kontekstində onun həyat yoluna qısa nəzər salınır;
- əl-Fərabinin etik baxışları prizmasından onun ölüm və ölməzlik haqqında düşüncələrinin fəlsəfi mahiyyətini açıqlanır;
- əl-Fərabinin cəmiyyətin mahiyyəti haqqında baxışlarının interpretasiyası verilir;
- əl-Fərabinin sosial tərəqqi və gələcək cəmiyyət haqqında baxışlarını təhlil edilir;
- əl-Fərabinin siyasət və dövlət haqqında baxışlarının sistemli təhlili verilir;
- İslam fəlsəfəsi kontekstində əl-Fərabinin varlıq konsepsiyasını araşdırılır;
- əl-Fərabinin metafizika haqqında baxışların müasirlik baxımından təhlil edilir.

**İşin elmi yeniliyi:** tədqiqatın elmi yeniliyi onun predmetindən, məqsəd və vəzifələrindən irəli gəlir. Dissertasiyada Şərq peripatetizminin ən görkəmli nümayəndələrindən biri olan əl-Fərabinin fəlsəfi yaradıcılığı kontekstində onun ictimai-siyasi baxışlarının sistemli təhlili aparılmış, onun utopik sosialist baxışları yalnız tarixilik baxımından deyil, habelə müasirlik baxımından da dəyərləndirilmişdir. Dissertasiyanın elmi yenikləri konkret olaraq öz əksini aşağıdakı müddəalarda tapmışdır:

- əl-Fərabinin sosial həyata həsr olunmuş əsərlərinin müfəssəl təhlili əsasında belə bir qənaət hasil edilmişdir ki, ictimai fikir tarixinin dəyərli ideyalarından biri olan utopik sosializm heç də Qərb fəlsəfəsinə deyil, məhz müsəlman Şərq peripatetizminə və ilk növbədə əl-Fərabi yaradıcılığına məxsusdur;
- İşdə əl-Fərabi yaradıcılığı kontekstində Şərq peripatetizminin cəmiyyət, sosial tərəqqi, siyasət və dövlət haqqında nəzəri mülahizələri tədqiq edilmişdir;
- əl-Fərabinin varlıq konsepsiyası və etik baxışları öyrənilmişdir;
- əl-Fərabinin metafizika (fəlsəfə) haqqında mülahizələri öyrənilmiş və onların müasir təsəvvürlərlə müqayisəsi verilmişdir.

**Dissertasiyanın nəzəri-metodoloji əsası və elmi əhəmiyyəti:** dissertasiyada reallaşdırılan tədqiqatın nəzəri əsasını mövzu ilə bilavasitə bağlı olan tədqiqatların və fəlsəfə klassiklərinin əsərləri, habelə problemlə eyni tipli tədqiqatların nəticələri təşkil edir. Dissertasiyasının yaradılmasında sistemli təhlil, struktur-funksional yanaşma, abstraktlaşdırma, ümumiləşdirmə,

abstraktdan konkretə yüksəlmə, izahetmə, təsnifetmə, qruplaşdırma metodlarından istifadə edilmişdir. Tədqiqat işində həmçinin İran İslam Respublikasının böyük kitabxanalarında saxlanılan əlyazma nüsxələrindən də istifadə edilmişdir.

Dissertasiyada əldə edilmiş nəticələrin elmi əhəmiyyəti bundadır ki, onlar Şərq peripatetizminə dair mövcud elmi və fəlsəfi təsəvvürləri xeyli dərəcədə dəqiqləşdirmiş və dərinləşdirilmişdir. Bu fikir birinci növbədə əl-Fərabinin cəmiyyət, dövlət, siyasət, ictimai münasibətlər, utopik sosializm cəmiyyəti haqqında baxışlarına aiddir.

**Tədqiqatın nəzəri-praktiki əhəmiyyəti:** dissertasiyada reallaşdırılan tədqiqatın nəzəri əsasını əl-Fərabinin sosial-fəlsəfi və idrak nəzəriyyəsinə həsr olunmuş əsərləri, bilavasitə mövzu ilə bağlı tədqiqatların və fəlsəfi klassiklərin əsərləri, habelə problemlə eyni tipli tədqiqatların nəticələri təşkil edir. Dissertasiyada əldə edilmiş nəticələrin əhəmiyyəti ondadır ki, onlar tədqiq edir. Dissertasiyada əldə edilmiş nəticələrin əhəmiyyəti ondadır ki, onklar tədqiq olunan problemə dair elmi və fəlsəfi təsəvvürləri xeyli dərəcədə dəqiqləşdirilmiş və dərinləşdirilmişdir.

Tədqiqatın praktiki əhəmiyyətinə gəldikdə qeyd etməliyik ki, əldə edilmiş nəticələrdən fəlsəfə, fəlsəfə tarixi, sosiologiya və politologiya fənlərinin tədrisində istifadə oluna bilər.

**İşin aprobasiyası:** dissertasiya Bakı Dövlət Universitetinin fəlsəfə kafedrasında yerinə yetirilmişdir. Dissertasiyanın əsas müddəaları müəllifin yazıb çap etdirdiyi elmi məqalələrdə, elmi-praktiki konfranslarda , məruzə və çıxışlarda öz əksini tapmışdır.

Dissertasiyanın strukturu: dissertasiya giriş, altı altfəsil ehtiva edən üç fəsil, nəticə və istifadəcedilmiş ədəbiyyat siyahısından ibarətdir.

## Dissertasiyanın əsas məzmunu

Girişdə mövzunun aktuallığı əsaslandırılır, onun işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilir, elmi yenikləri, metodoloji əsasları, nəzəri və praktiki əhəmiyyəti açıqlanır.

Dissertasiyanın "Əbu Nəsr əl-Fərabinin dünyagörüşünün formalaşmasının ictimai-siyasi mühiti və ideya mənbələri" adlanan birinci fəsli iki yarımfəsildən ibarətdir. "IX-X əsrlərdəki ictimai-siyasi mühit kontekstində əl-Fərabinin həyat tarixinə qısa nəzər" yarımfəslində böyük filosofun həyat yoluna, onun fəlsəfi dünyagörüşünün formalaşdığı sosial mühitə, elmi biliklər yiyələnmək məqsədilə Yaxın Şərq ölkələrinə etdiyi səyahətlərə fikri ekskursiya keçirən dissertant əl-Fərabini müasirlərinin gözü ilə qiymətləndirərək səksən il yaşamasına (870-950) baxmayaraq elm



naminə ailə qurmadığını, "ilk müsəlman mütəfəkkiri və hər mənada əsl filosof" olduğunu diqqətə çəkərək onun islam dünyasındakı rolunun eynilə Platonun Qərb dünyasındakı roluna bənzədiyini vurğulayır. İşdə qeyd olunur ki, əl-Kindi ərəb dünyasının ilk filosofu olsa da, xilafətin mənəvi həyatında mükəmməl fəlsəfi məktəbin yaradılması məhz əl-Fərabinin həyat və yaradıcılığı ilə bağlıdır. Əl-Fərabinin həyat və yaradıcılığı elə bir dövrə təsadüf edir ki, bu dövrdə müsəlman alimləri özlərinin bütün elmi səylərini və yaradıcılıq fəaliyyətlərini yunan alimlərini əsərlərini ərəb dilinə tərcümə edilməsinə və onların geniş miqyasda təbliğinə yönəltmişdilər. Əl-Fərabi müəyyən həddə qədər qədim yunan filosoflarının və ilk növbədə Platon və Aristotelin baxışlarının təsiri altında olmuşdur, tədqiqatçılar onu məntiq və təbiət elmlərində Aristotelin, əxlaq və siyasət elmlərində isə Platonun davamçısı hesab edirlər[4]. Onuncu yüzillikdə Şərqdə, müsəlman dünyasında Əbu Nəsr əl-Fərabi kimi nəhəng bir filosofun "zühuru" fəlsəfə elminin inkişafında kimsənin gözləmədiyi bir sıçrayış yaratdı: əl-Fərabinin fəlsəfi sistemi sözün əsl mənasında insan idrakında əsl inqilab idi. Bu inqilabın davamçıları sayılan İbn Sina, Bəhmənyar, İbn Rüşd və b. böyük mütəfəkkirin fəlsəfi sistemini Yaxın və Orta Şərqdə, Şimali Afrika və Qərbi Avropaya yaydılar. İslam ideologiyasının şüurlara hakim kəsilməsi Avropa xristian doktrinasının müsəlman fəlsəfəsinin və məntiq təlimlərinin inkişafı qarşısında sarsılmasına başlanğıc verdi. Bu baxımdan əl-Fərabinin fəlsəfi sistemi X-XI yüz illiklərdə geridə qalmış və qatı bir qaranlıq içərisində çapalayan Avropa xalqları üçün mütərəqqi rol oynamışdır.

Elmin müxtəlif sahələri üzrə dərin məzmunlu əsərlər yazmış əl-Fərabi mütəxəsislərin yekdil rəyinə görə onların hamısında yüksək bilik və heyrətamiz elmi intuisiya nümayiş etdirmişdir. Onun bir sıra əsərlərinin adlarını belə nəzərdən keçirsək onun bilik dairəsinin nə qədər geniş, dünyagörüşünün nə dərəcədə zəngin olması haqqında aydın təsəvvür əldə edə bilərik. Onun evklid hadisəsinə, Ptolomey astronomiyasına, Aristotelin və digər yunan alimlərinin əsərlərinə yazdığı şərhlər, müxtəlif anlayışlar, terminlər haqqında yazdığı əsərlər min ildən artıqdır ki, mədrəsə tələblərindən tutmuş dünyanın böyük alimləri arasında, elm ocaqlarında, Şərqdə, Avropada, Şimali Afrikada əldən-ələ gəzərək, obrazlı desək, "səyyar akademiya" funksiyasını yerinə yetirmişdir. Mənbələrin göstərdiyinə görə əl-Fərabinin əsərlərinin sayı 300-dən çox olmuşdur.

[4] H.İmanov, A.əhədov. Orta əsrlərdə ərəb-müsəlman fəlsəfi fikri. Bakı: Ülvi həyat, 2008 s. 70.

Dissertasiyanın birinci fəslinin "Əl-Fərabinin ictimai-etik görüşləri" adlanan ikinci yarımfəsli böyük mütəfəkkirin etik görüşlərinin sistemli təhlilinə həsr edilmişdir. Bu münasibətlə işdə əvvəlcə qeyd edilir ki, əl-Fərabinin mənəvi dəyərlərə aid görüşləri onun kəlam və təsəvvüfə (sufilik) aid görüşləri ilə sıx bağlı olub, bu sonunculardan bəhrələnmişdir.

Əl-Fərabi peripatetik olduğundan özünün mənəvi görüşlərini və Aristotel fəlsəfəsini islam dünyagörüşü ilə bir araya gətirməyə çalışmış, lakin orjinal və sağlam düşüncə sahibi olduğundan Aristotelin nəzəri irsinə yaradıcı yanaşaraq ona özünəməxsus yeniliklər əlavə etmişdir. Dissertasiyada bu yenilikləri açıqlayan və onların müfəssəl şərhini verən dissertant əl-Fərabi yaradıcılığının belə bir cəhətini də diqqət çəkir ki, əl-Fərabi ruhun başqa bədənə keçməsi haqqında baxışları qətiyyətlə rədd edərək, axirət dünyasına və ölümdən sonra insanın diriləcəyinə inanmamışdır. Ruhu bədənin ağası sayan əl-Fərabi belə düşünür ki, ölən bədəni tərk edən ruh ilahi aləmə qayıdır.

Əl-Fərabi peripatetik olduğundan özünü mənəvi görüşlərini Aristotel fəlsəfəsi və islam dünyagörüşü ilə bir araya gətirməyə çalışsa da, orjinal və sağlam düşüncə sahibi kimi böyük yunan filosofunun nəzəri irsinə yaradıcılıqla yanaşaraq ona özünəməxsus yeniliklər də əlavə etmişdir.

Ruhun bədəndən başqasına keçməsi haqqında Platon ideyasını rədd edən əl-Fərabi materiyanı əzəli qəbul etsə də, Allahı kainatın yaradıcısı saymışdır. Beləliklə, əl-Fərabi fəlsəfəsinin ontoloji aspektdə təhlili göstərir ki, onun fəlsəfəsi bütövlükdə ortodoksal islam dünyagörüşü ilə heç də üst-üstə düşməmişdir. O, fəlsəfəni dünyanı idrak metodları, təcrübə və əqli mühakimələrin köməyi ilə öyrənən elm, dini isə simvolik xarakterli dünyagörüşü hesab etmişdir.

Əl-Fərabinin etik konsepsiyasında ruhun təhlili məsələsi mərkəzi yerlərdən birini tutur. İnsan ruhunu beş hissəyə (qidalandıran ruh, duyan ruh, təxəyyül ruhu, cəhd göstərən ruh və əqli ruh) ayıran əl-Fərabi yaradıcılığında belə bir məqam diqqət çəkir ki, filosof, bir tərəfdən, insanların əxlaqı hərəkətlərini ruhun durumu ilə, digər tərəfdən, ruhun sağlamlığının bədənin sağlamlığı ilə şərtləndirir və bu münasibətlə yazır: "Bədən kimi ruh da sağlam və xəstə ola bilər. Ruhun sağlamlığı hesabına həmişə xeyirxah əməllər, xeyirxah işlər və xeyirxah fəaliyyət baş verir. Ruhun xəstəliyi ucbatından isə həmişə axmaq hərəkətlər, xoşagəlməz işlər, çirkin əməllər ortaya çıxır"[5]. Bu mövqedən çıxış edən əl-Fərabi xeyirxah işlər görən və xeyirxah fəaliyyət göstərən insanları xeyirxahlar, yaramaz işlərlə məşğul olan, həyatı əyən hərəkətlərə yol açan insanları isə bədxahlar adlandırır.

[5] Ал-Фараби. Социально-этические трактаты. Алма-Ата, 1973. С. 171-172



Əl-Fərabinin etik görüşləri sistemində "əql" anlayışı da ayrıca yer tutur. Ərəb dilli şərq şərq fəlsəfəsində "əql" anlayışını diferensiallaşdıraraq onu "nəzəri əqlə" və "əməli əqlə" ilk dəfə ayıran əl-Fərabi olmuşdur.

Əl-Fərabi ağılsızlığı insan ruhunun əxlaqi çatışmazlığına başlanğıc verən xəstəlik kimi qəbul edərək yazır ki, ağılsız adam həmişə kinli və bədniyyət olub, yalnız yararsız məqsədlərə can atır. Digər şərq peripatetikləri kimi əl-Fərabi də bu əqidədə olmuşdur ki, insanın əxlaq və xeyirxahlıq dərəcəsi onun əqli dərrakəsi ilə müəyyən olunur.

Dissertasiyada əl-Fərabinin etik konsepsiyasında özünə yer almış bir sıra məsələlərin, o cümlədən, insanın iradə azadlığının dərin və tutarlı təhlili verilmiş və bu anlayış diferensiallaşdırılaraq "əqli iradə", "hissi iradə" və "sərbəst seçim iradəsi" kimi növlərə ayrılmışdır.

Aparılan araşdırmalar göstərir ki, orta əsrlər Şərq peripatetizminin, o cümlədən əl-Fərabinin etik konsepsiyasının nüvəsini xoşbəxtlik kateqoriyası təşkil edir. Xoşbəxtlik haqqında təlim insan həyatının məqsədi kimi əl-Fərabinin etik konsepsiyasına dərindən nüfuz edir. Bu baxımdan əl-Fərabinin "Xoşbəxtliyə aparan yol", "Vətəndaş siyasəti", "Dövlət xadiminin aforizmləri", "Xoşbəxtliyə nail olunması" əsərlərindən xoşbəxtlik kateqoriyasının təhlilinə geniş yer ayırması heç də təsadüfi olmamışdır. Bu dövrdə ortodoksal islam nümayəndələri xoşbəxtliyin qazanılmasını yalnız insanın axirət dünyasına qovuşması ilə bağlayır və Qurani-Kərimə istinadən belə düşünürlər ki, insanlar transendental təbiətli xoşbəxtliyə ancaq cənnətdə nail ola bilərlər. Dissertasiyada qeyd edildiyi kimi, əl-Fərabi Quranın bu ehkamına qarşı açıq çıxış etməsə də, onun etik və fəlsəfi traktatlarının təhlili heç bir şübhə yeri qoymur ki, o insan xoşbəxtliyini ancaq onun yer həyatı ilə bağlayır.

Dissertasiyanın ikinci fəsli "Əl-Fərabinin varlıq konsepsiyası və metafizika haqqında baxışları" adlanır.

Fəslin "Əl-Fərabinin islam fəlsəfəsinin inkişafı haqqında baxışları" adlanan birinci yarımfəslində qeyd edilir ki, əl-Fərabinin varlıq konsepsiyası şərq peripatetizminin varlıq konsepsiyası ilə bir sıra ümumi cəhətlərə malik olsa da, özünün bir sıra özəllikləri ilə onlardan fərqlənir. Əvvəla, əl-Fərabi fəlsəfəsində dünya iki hissəyə - "Aydan yuxarı" və "Aydan aşağı" hissələrə bölünür. O, "siyasət-ülmədinə" kitabında aləmi altı təbəqəyə bölərək bunlardan üçünü Aydan-yuxarıda, üçün isə Aydan aşağıda yerləşdirir. İşdə bu təbəqələrə mənsub varlıqlar haqqında məlumat verildikdən sonra qeyd edilir ki, bütün bu varlıqlar Allahın zatından yaranmışdır, deməli ilahi varlıq aləminin yaranma səbəbidir.

Əl-Fərabiyə görə varlığın zirvəsində özünü dərk edən Allah durur. Allahın simasında ilk səbəbi (illət-əl-ülə) qəbul edən əl-Fərabi belə bir fikrə rəvac verir ki, dünya maddi, əzəli və əbədidir. Əl-Fərabinin bu sonuncu fikri özünün yeniliyi ilə nəzəri cəlb edir, belə ki, bütün dünya dinlərində o cümlədən islamda əbədi və əzəli olan yalnız Allahdır, ona şərik olan heç bir varlıq yoxdur. Məhz maddi dünyanı əzəli və əbədi qəbul etdiyinə görə Avropa xristian din xadimləri əl-Fərabinin və onun davamçıları olmuş İbn-Sinanı və İbn-Rüşdü mulhid (ateist), dəhri (naturalist, materialist) adlandırmış və Şərq peripatetiklərinin fəlsəfi təlimlərinin bu dinlər üçün necə qorxulu olduğunu yaxşı başa düşmüşlər.

Əl-Fərabinin varlıq konsepsiyasına görə maddi aləm cisimlərdən, təbii cisimlər isə torpaq, su, hava, oddan və onların xüsusi halı olan buxardan, şölədən, daşdan, materiallardan, mineral maddələrdən, bitkilərdən, zəkalı və zəkasız heyvanlardan ibarətdir. Cisimlər iki komponentdən – maddə və formadan ibarətdir. Formasız maddə yoxdur.

Dissertasiyada şərq peripatetiklərinin, o cümlədən əl-Fərabinin Demokratik atomistika təliminə, bölünməz, dəyişməz, nüfuz edilməz, atom anlayışına münasibəti də özünə yer almış, Əl-Fərabi peripatetik olaraq Aristotelin maddənin sonsuz bölünə bilməsi konsepsiyasından çıxış edərək Demokritin atomistika təlimini rədd etmişdir.

Dissertasiyada əl-Fərabinin varlıq konsepsiyasında insan probleminin qoyuluşuna və təhlilinə də müəyyən yer ayrılır. Əl-Fərabiyə görə Yer üzünün əşrəfi sayılan insan çoxluqlar aləminin ən mükəmməl, ən fəal varlığıdır. O, kamal və ləyaqətin ən yüksək mərtəbəsində, əqlin inkişafının (cismani əql, həqiqi əql, fəal əql) yüksək mərhələsini təşkil edən fəal əqlin yanında yerləşərək ülvi aləmdən maksimum bilik və informasiya qəbul etmək imkanını özünün böyük ləyaqəti sayır. İnsanlar öz təbiətinə görə toplum halında yaşamağa məhkum edilmişdir. Əl-Fərabinin insanı mahiyyət etibarı ilə kamala qadir olan varlıqdır. Filosofun təbirincə insan dilə və nitq qabiliyyətinə malik olduğu üçün bu qabiliyyət sayəsində ikinci idraka və rasional elmlərə doğru stimullaşır. İnsan nəfsinin onun təbiəti ilə əlaəqləndirən əl-Fərabi insan nəfsinin ruhi olmasını qəbul etmir. Dissertasiyada belə bir məsələ açıqlanır ki, əl-Fərabiyə görə nəfslər bir-birindən qüvvə və dərəcəsinə görə fərqlənir və bu prinsipdən çıxış edərək işdə nəfs qüvvələri belə sıralanır: qidalanma qüvvəsi, hiss və duyğu qüvvəsi, nitq qüvvəsi, xəyal qüvvəsi, nitq qüvvəsi.

Dissertasiyada bu qüvvələrin açıqlaması verilməklə yanaşı, həm də qeyd edilir ki, insanın nitq qüvvəsi onu bütün digər mövcudardan fərqləndirən sahədir. Dissertasiyada əl-Fərabinin əql anlayışına da



münasibəti, əqlin formaları: potensial əql, fəaliyyət göstərən əql, fayda bəxş edən əql məsələləri də öz təcəssümünü tapmışdır.

Əl-Fərabi yaradıcılığında təzahür, hadisə haqqında baxışlar da özünə yer alır. Bu anlayış əql və varlığın başında duran Allah haqqında bəhs etdiyi məqamlarda daha qabarıq təzahür edir.

Əl-Fərabi öz yaradıcılıq silsiləsində kamal (kamillik, mükəmməllik anlayışını da diqqət mərkəzində saxlayır və belə bir fikrə söykənir ki, heç bir insan ilk başlanğıcdan kamil olmasa da, o, anadangəlmə kamala malikdir. İnkişafın sonrakı mərhələlərində insan durmadan kamilləşir.

Daha sonra dissertasiyada ortodoksal islam sxolastikası – kəlam haqqında biliklər və əl-Fərabinin kəlama münasibəti açıqlanır. Bu münasibətlə işdə belə bir açıqlama verilir ki, kəlam ilk islam sxolastikası olub, dini-idealist sistem nümunəsidir.

Dissertasiyada islam fəlsəfəsinin əsas istiqamətlərindən olan Ət-təsəvvüf (sufilik) fəlsəfəsinin mahiyyəti məsələsinə və bu məsələyə münasibətdə əl-Fərabinin mövcud məsələsinə də diqqət yetirilir və müəyyən nəticələr çıxarılır.

Dissertasiyanın ikinci fəslinin ikinci yarmfəsli “Əl-Fərabinin metafizika haqqında baxışları” adlanır.

İşdə qeyd edilir ki, əl-Fərabinin fəlsəfəsi haqqında qısa və dəqiq hesabatın hazırlanması bəzi səbəblərə görə ciddi çətinlik törədir. Bu çətinliklərdən birincisi əl-Fərabinin əsərlərinin yalnız son üç onillikdə bir araya gətirilərək toplum halına salınması ilə, ikincisi isə bundan ibarətdir ki, əl-Fərabi öz fəlsəfəsini bütün varlıqların və reallıqların şərhinin açarı kimi təqdim etdiyindən onun fəlsəfəsində həyat, mərifət və dünyanın öyrənilməsinin simvolik tarixi bir layihə formasında təqdim olunması ilə bağlıdır.

Əl-Fərabi fəlsəfəsində kəlam və təsəvvüflə bağlı təsəvvürlərlə yanaşı mənəvi dəyərlərə aid baxışlar da (metafizika) əhəmiyyətli yer tutur.

Yuxarıda qeyd etdiyimiz kimi əl-Fərabiyə görə gerçəkliyin zirvəsində vahid və hər şeyə qadir Allah durur. O, vacib (zəruri) varlıqdır, mümkün varlıq isə onun törəməsi olub, vacib varlığa möhtacdır. Vacib varlığın heç bir şeyə ehtiyacı yoxdur, o, mütləq bu dəyişməzdir, kamalın, saflığın, mükəmməlliyin mücəssiməsidir. Onu dərk etmək mümkün deyil, o haqqdır, hakimdir. Ləzzətin ən yaxşısı tanrını yada salmaq, ona pənah gətirməkdir.

Əl-Fərabi özünün mənəvi baxışlarında Aristotel fəlsəfəsi ilə islam dünyagörüşünün uzaqlaşdırmağa çalışsa da, bu baxışlarda bir sıra dəyişikliklərə yol verir:

1. Aristotelə görə Allah aləmin mərkəzində yerləşib materiyaya müəyyən forma verdiyi halda, əl-Fərabi yaradıcılığında Allah ilə materiyanın vəhdəti ön plana çəkilir və maddə öz zəruriliyini Allahdan alır;

2. Aristotelə görə Allah ilk təkanverici olub, materiyaya mexaniki təsir göstərdiyi halda, əl-Fərabiyə görə hərəkətin mənbəyini ruhun təbiətə təsiri təşkil edir;

3. Aristotelə görə Allah təbiətə mexaniki və kortəbii təsir etdiyi halda, Əl-Fərabiyə görə Allah dünyanın ancaq qlobal problemləri ilə məşğul olub, lokal probləmin prosesinin mələklərə və peyğənbərlərə həvalə edir;

4. Aristotel yaradıcılığında fəal əql ilə (formalar forması) Allah eyniləşdirildiyi halda Əl-Fərabiyə görə Allah ümumi ruh, emanasiya yolu ilə şeyləri yaradan ali məxluqdur. Deməli, Aristotelə görə Allahla gerçəklik arasında köməkçi qüvvələr (mələklər, göy cisimlərinin ruhları, insan əqli, peyğənbərlər) olmadığı halda əl-Fərabi fəlsəfəsində belə qüvvələr vardır. Əl-Fərabi yaradıcılığından çıxarılan mühüm nəticələrdən biri də bundan ibarətdir ki, əl-Fərabi ruhun digər bədənlərə keçməsi haqqında kəlamçı baxışları rədd edərək axirət dünyasına və insanların ölümdən sonra diriləcəyinə inanmır.

Daha sonra dissertasiyada əl-Fərabinin birinci səbəb haqqında əsaslandırılmalarına nəzər salınır. Əl-Fərabi yazır: "Birinci səbəbin üzvləri yoxdur. Onun üzvlərə bölünməsini hətta fərz belə etmək olmaz... Maddə və cismin varlıq səbəbləri onların ayrılmaz tərkb hissəsidir. Lakin birinci səbəb haqqında bunları demək olmaz. Çünki birinci səbəb və onun vücudu, yəqinliklə demək olar ki, səbəbsizdir"[6], Əl-Fərabi bundan belə nəticə çıxarır ki, adi insan zəkası Allahı birbaşa tanımaqla və dərk etməyə qadir deyil. Halbuki, Allah öz-özünü dərk edəndə gerçək aləm əmələ gəlmiş, əvvəlcə ruhu, sonra da əql və mələklər aləminin yaratmışdır. Daha sonra isə Aydan aşağıdakı aləm formalaşmışdır. Əl-Fərabi bu aləmi maddi saysa da, onun təməlində ruhun və zəkanın yerləşdiyini söyləyir. Aydan aşağıda duran aləmə hakim kəsilən aktiv zəka Yer kürəsini fırlanmağa məcbur edir. Aydan aşağıda yerləşən aləmdə maddə və forma səmavi plaketlərin fərqli hərəkəti vasitəsilə istehsal olunur. Forma və maddə varlığın mövcudluğu, üsulları olmaq etibarilə bir-birinin tələb edirlər.

Daha sonra dissertasiyada əl-Fərabini metafizikasında özünə yer alan idrak problemi tədqiqat müstəvisinə gətirilmiş bu məsələyə öz nöqteyi-nəzərini bildirən əl-Fərabi biliyin üç formasını fərqləndirir: birincisi, duyğulardan və əqldən törəyən bilik, ikincisi, nəzəriyyə yürütmək yolu ilə əqldən törəyən bilik, üçüncüsü, müşahidə vasitəsilə qazanılan bilik.

[6] Əl-Fərabi. Təhsili sadə. Heydərabad, 1345. S. 43



Əl-Fərabinin metafizik baxışlar sistemində elmlərin təsnifatı məqsədi də mühüm yer tutur. Dissertasiyada böyük filosofun "Uhsayəl-ulum" əsərinə istinadən elmlərin beş sinfə bölündüyü bildirilir: 1. Dil elmi və onun hissələri; 2. Məntiq elmi və onun hissələri; 3. Dəqiq elmlər (hesab, riyaziyyat, həndəsə, astonomiya və s.); 4. Təbiət elmləri və ilahiyyat;5. Mədəni elmlər və onların hissələri (hüquq və kəlam).

Dissertasiyada əl-Fərabinin metafizikası haqqında baxışları izlənərkən onun insan varlığı üçün mühüm əhəmiyyət kəsb edən ölüm və ölmzəlik haqqında düşüncələri də fəlsəfi təhlil süzgəcindən keçirilib, Avropa fəlsəfi fikrində çox-çox sonralar yaranmış eyni məzmunlu fikirlərlə müqayisə edilir.

Dissertasiyanın üçüncü fəsli "Əbu Nəsr əl-Fərabinin cəmiyyət konsepsiyası və ictimai – siyasi baxışları" adlanır.

Fəslin "Əl-Fərabinin cəmiyyətin mahiyyəti haqqında baxışları" adı altında verilən birinci yarımfəslində fəlsəfə tarixində cəmiyyət haqqında inkişaf tarxinə qısa nəzər yetirən müəllif XIX əsrə qədər baxışların iki mühüm cəhətini qeyd edərək onların məğzini açıqlayır.

Əl-Fərabi irsinin ən maraqlı məqamlarından biri də onun sosial həyat, cəmiyyətin mahiyyəti ilə bağlıdır. Dissertasiyada qeyd edildiyi kimi əl-Fərabinin fəlsəfədə etdiyi ən böyük yeniliklərdən biri Şərqin mənəvi həyatında siyasi fəlsəfəni yaratması və utopik sosializm haqqında təsəvvürlərə başlanğıc verməsindən ibarətdir. Bu kontekstdə onun "Siyasət kitabı", "Yetkin toplum" və s. əsərləri dərin ictimai-siyasi və fəlsəfi məna kəsb edən traktatlardır.

Əl-Fərabinin cəmiyyətin mahiyyəti haqqında baxışları özünün ən qabarıq ifadəsini onun utopik sosializm cəmiyyətinin təsvirinə həsr etdiyi "Mədinəti - ə l – fazilə" və yaxud "Əray-əhli-əl-mədinətül-əl-fazilə" adlı məşhur əsərində tapılmışdır. Bu ad azərbaycan dilinə tərcümədə "Fəzilət şəhəri" və yaxud "fəzilət şəhər əhlinin (dünya) görüşləri" kimi səslənir. Siyasi mövzularda münasibətdə Platonu daha çox diqqət mərkəzində saxlayan əl-Fərabi böyük müəllimi Aristotel kimi belə hesab etmişdir ki, insanın yaranışı elə bir formadır ki, bəşər övladı kamilliyin ali mərtəbəsinə qovuşmaq üçün ona yalnız fərdi xarakterli səylər kifayət etmir. Buna görə də hər bir insan təbii fitrətindən və zatından irəli gələn kamilliyə çatmaq yolunda xalq kütlələrindən təşkil olunan icmaya ehtiyac duyub, onunla eyni cinsdən olan varlıqların əhatəsində yaşamaq istəyir. Beləliklə, əl-Fərabiyə görə insanların bir-birinə olan ehtiyacı cəmiyyətin formalaşmasının və mövcudluğunun mühüm amillərindən birinə çevrilir. Bu baxımdan "fəzilətli

utopiya məkanı" anlayışı əl-Fərabi yaradıcılığından qırmızı xəttlə keçərək onun cəmiyyət konsepsiyasında və ictimai-siyasi baxışlar sistemində möhkəm kristallaşır. Əl-Fərabinin təbirinə görə fəzilətli utopiya məkanı insanların rifah haqqında yaşadıqları, əxlaqi fəzilətlərdən bəhrələndikləri, nəticə etibarı ilə xeyir və səadətə doğru istiqamətləndikləri yerdir. Burada bütün insanlar barış, səmimiyyət, əmin-amanlıq və rifah halında yaşayırlar.

Əl-Fərabi insanların bir yerə toplanmasından yaranan cəmiyyəti bütöv və yarımçıq cəmiyyətlərə ayırır. O, bütöv cəmiyyətləri də differensiallaşdıraraq, onları böyük toplum, orta toplum və kiçik toplumlar üzrə bölür[7]. Böyük toplum yer üzərində yaşayan bütün insanlardan yəni bəşəriyyətdən, orta toplum ayrı-ayrı xalqlardan (millətlərdən), kiçik toplum isə bir xalqın yaşadığı ərazidə yerləşən ayrıca bir şəhər əhalisindən təşkil olunur. Əl-Fərabiyə görə hər bir cəmiyyətdə bütöv toplumlarla yanaşı yarımçıq toplumlarda fəaliyyət göstərir: kənd, məhəllə, küçə, ev yarımçıq toplumlardır.

Dissertasiyada qeyri-yetkin toplumlar, habelə avam toplum zəruri, dəyişkən, alçaq, şöhrətpərəst, ağalıqsevər, kefcil, biliksevər növləri haqqında ətraflı məlumatdan sonra dissertant yetkin toplum başçısının vacib məziyyətlərindən söhbət açaraq onun onun mənəvi portretini yaradır. Bu portretin başlıca cizgiləri aşağıdakılardır:

- Başçının bədəncə sağlam və bütün üzvləri yerində olmalıdır ki, üzərinə götürdüyü vəzifəni layiqincə yerinə yetirə bilsin;
- Ona ünvanlanan hər bir sözü yaxşı başa düşüb qavramalıdır;
- Başçının hafizəsi güclü olmalıdır;
- Başçı ayıq və düşüncəli olmalıdır;
- Başçı natiq olub, gözəl danışıq qabiliyyətinə malik olmalıdır;
- Başçı öyrətməyi və öyrənməyi sevməlidir;
- Başçı nəfsin qorumağı bacarmalı, yemək, içmək və qarın düşkünlüyü olmamalıdır;
- Başçı düzgünlüyü, doğru danışmağı sevməli, yalançılıqlara nifrət bəsləməlidir;
- Başçı alicənab olmalı və alicənablığı sevməlidir;
- Başçı ədalətli olmalı, istedada, zülmə və zalımlara nifrət bəsləməlidir;
- Başçı mülayim xasiyyətli, əzmli və iradəli olmalıdır.

[7] Əl-Fərabi. El-Mədinəti-fazil. Tehran, 1361. S 112-114



Dissertasiyada qeyd edilir ki, əl-Fərabinin utopik cəmiyyət başçısına ispad verdiyi sifətlər Yaxın Şərqdə "ədalətli hökmdar" ideyasına başlanğıc verərək, ilk növbədə böyük Nizami yaradıcılığında öz təsirini göstərmişdir.

Əl-Fərabi yaradıcılığında diqqəti çəkən məqamlardan biri də böyük filosofun sosial baxışlarında cəmiyyət iki əsas aspektdən araşdırılmışdır: birincisi, coğrafi aspektdən, ikincisi insanların kamala yetişmək aspektindən. Əl-Fərabi yaradıcılığından çıxış edərək dissertasiyada hər iki aspekti diqqət mərkəzinə gətirən müəllif belə qənaətə gəlir ki, böyük filosofun yaradıcılığında coğrafi amillər və daxili əlaqələrin baxışından cəmiyyətlər kamil və qeyri-kamil cəmiyyətlərə bölünür. Bu cəmiyyətlər bir-birindən insanların ehtiyaclarını nə dərəcədə ödəmələrinə görə fərqlənir.

Əl-Fərabi insanların kamillik dərəcəsindən asılı olaraq cəmiyyətləri mədəni və qeyri-mədəni növlərə ayırır. O, fəzilət şəhərini ən mədəni cəmiyyət insanı səadətə aparan məkan adlandırır. Əl-Fərabinin xəyalında özünə yer alan utopiya yüksək aləmə qovuşmağa əsas verən siyasi fenomendir. Daha sonra dissertasiyada əl-Fərabinin fəzilət şəhərinin struktur səviyyələrinin təsviri verilir və göstərilir ki, bu struktur mütləq xadimdən başlayıb mütləq xidmət edənlə başa çatır.

Əl-Fərabi fəzilət şəhərindəki insanların münasibətini bədən orqanlarının münasibətinə, başçını isə insan ürəyinə bənzədir. Doktor Davərinin nəzərincə əl-Fərabi şəhər rəisinin şəhərin mövcudluğunu davam etməsinin səbəbi hesab edir. Bu baxımdan əl-Fərabi "fəzilət şəhəri əhlinin düşüncələri" əsərində şəhəri belə təqdim edir: "o şəhər ki. Orada cəmiyyətin həqiqi məqsədi insan səadətinin əldə edilməsinə səbəb olan işlərdə təzahür edir, o məkan ki, orada qarşılıqlı yardım mövcuddur, o fəzilət şəhəridir"[8].

Daha sonra dissertasiyada fəzilətlər şəhərinin sosial mühitinin qısa şərhini vermək məqsədilə şəhər sakinlərinin qruplaşdırılması məsələsinə nəzər salınır.

Sakinləri şəhərin sütunları adlandıran əl-Fərabi onları belə qruplaşdırır.

Əl-Fərabi fəzilət şəhər başçısının mühüm vəzifələrindən birini yeniyetmələrin tərbiyə və idarə edilməsində görür və bu sahədə dörd çıxış yolunu təklif edir: nəsihət vermək, cəzalandırmaq, işdən çıxarmaq və ya işə qoymaq, həbsə almaq[9].

[8] Riza Davriye Ərdakani. Fəlsəfeyi mədəni əl-Fərabi. Tehran, 1377. S. 46

[9] Əbu Nəsr əl-Fərabi. Arayi əhli Mədineyi fazilə. Ət Təbsadişə Beyrut Darül məşriq. 1991 miladi.

Dissertasiyada fəzilət şəhəri ilə yanaşı mahiyyətcə ona zidd olan şəhərlər haqqında da məlumat verilir. Əl-Fərabi bu münasibətlə yazır ki, fəzilət şəhərinə zidd olan şəhərlər cahiliyyət (cahil), günahkar (əxlaqsız), kafir (dinsiz) və dəyişkən (sabitolmayan) şəhərlərdir.

Dissertasiyanın bu bölməsində əl-Fərabinin fəzilət anlayışı haqqında düşüncələrinə də yer ayrılır və qeyd edilir ki, fəzilət kamillik, üstünlük deməkdir. Əl-Fərabinin nəzərincə bütün fəzilətlərin məqsədi ruha xeyir verməkdir. Bu baxımdan səadət fəzilətin növlərindən biri olub, insanın gözəl hərəkətlərindən, mükəmməl əməllərindən doğulur. Fəzilət anlayışı ilə əlaqədar əl-Fərabi fəzilət şəhərinin rəhbərinin xeyir əməllərindən də söhbət açaraq bu əməllərin sırasına fəzilətli hərəkətləri, işdən, rəzalətdən, qəddarlıqdan uzaq olmağı daxil edir.

Fəslin ikinci yarımfəsli "Əl-Fərabinin sosial tərəqqi gələcək cəmiyyət və siyasi baxışları" adlanır.

Dissertasiyada qeyd edilir ki, əl-Fərabinin nəzəri yaradıcılığında cəmiyyət haqqında baxışları ilə yanaşı sosial tərəqqi və gələcək cəmiyyət haqqında baxışları da əhəmiyyətli yer tutur. Bu baxışların dəyəri hətta o dərəcədə böyükdür ki, onların fəlsəfi tədqiqatlar müstəvisinə çıxarılması yalnız tarixilik baxımından deyil, həm də müasirlik baxımından mühüm əhəmiyyət kəsb edir.

Bu məqsədlə dissertasiyada belə bir fikir söylənilir ki, Platondan üzü bəri yaşamış bir çox görkəmli mütəfəkkirlər müasirləri olduqları cəmiyyət quruluşunda özünə yeralan qüsurları, nöqsanları, hər cürə çatışmazlıqları üzə çıxarmaq və bununla da bəşəriyyətin inkişafına rasional təsir göstərmək məqsədilə seçdikləri yollardan birini, bəyəndikləri kamil cəmiyyət və hakimiyyət quruluşu haqqında təklif və tövsiyyələrin irəli sürmüşlər. Doğrudur, bu nəzəriyyə və ideyalar yalnız utopik-xəyal olub, o qədər real görünməsələr də, insanların daha yaxşı, daha humanist, daha ədalətli hakimiyyət quruluşlarına olan arzu və istəklərindən xəbər verirdi. Bu baxımdan fəzilətli utopiya məkanı əl-Fərabi yaradıcılığından qırmızı xəttlə keçir. Əl-Fərabi yaradıcılığında fəzilətli utopiya məkanı aşağıdakı kimi xarakterizə olunur: bu məkan insanların rifah halında yaşadıqları, əxlaqi fəzilətlərdən bəhrələndikləri və nəticə etibarilə xeyir və səadətə doğru istiqamətləndikləri yerdir. Burada insanlar barış, səmimiyyət, əmin-amanlıq, rifah halında yaşayırlar. Fəzilətli utopiya cəmiyyətini kamil və sağlam bədənə oxşadan əl-Fərabinin intellektual düşüncə tərzinə görə bu cəmiyyət elə bir şəhərdir ki, onun sakinləri əlaqəli və həmrəy yaşayaraq özlərinin istək və məqsədlərinə çatmaq üçün birgə səy və fəaliyyət göstərirlər. Əl-Fərabinin təbirincə real cəmiyyətlərdə insanların sosial və siyasi durumları bir-birindən fərqləndiyi kimi utopik fəzilətli cəmiyyətdə də



bir sosial təbəqə digərindən fərqlənir, onlardan biri hətta digəri üzərində hökmranlıq da etməyə qadirdir. Burada hətta cəmiyyətdəki ictimai mövqeyinə və baxışına görə hakimiyyətə daha yaxın təbəqələr də mövcud ola bilər.

Əl-Fərabi öz təxəyyülündə fəzilətli utopiyasının qurmaq məqsədilə sadə bir misalın timsalında pramidaya bənzər kamil bir cəmiyyət strukturu yaradır. Bu cəmiyyətin başında fəzilətli utopiyanın rəhbəri və ya hakimi dayanır. Hakimiyyət iyerarxiyasında hakimdən sonraq nazirlər (mənsəb sahibləri), daha sonra ikinci təbəqənin başçıları (valilər və direktorlar) və nəhayət, üçüncü təbəqə başçıları (icra hakimləri) gəlir və bu minvalla onlar cəmiyyətə xidmət edirlər.

Dissertasiyada qeyd edilir ki, əl-Fərabi bəsirətli utopiyanın strukturunu üç mərhələyə bölərək onları müvafiq olaraq rəhbər təbəqə (rəhbərlik məqamında olanlar), xidmət edənlər (rəhbərlik etməyib, yalnız xidmət edənlər), orta təbəqə (məsul şəxslərin və direktorların rəhbərliyi altında çalışanlar) adlandırır. Əl-Fərabi arzusunda yaşatdığı utopik cəmiyyətin başlıca məqsədini vətəndaşların səadət və rifah halına çatdırılmasında insan səadətinin isə ancaq xeyir anlamında başa düşürdü.

Dissertasiyada əl-Fərabinin fəzilət cəmiyyətinin geniş təhlil edən müəllifin mühüm nəticələrindən biri bundan ibarətdir ki, böyük filosofun nəzərdə tutduğu səadət yalnız real maddi dünyaya aid olmayıb, bəlkə də insanların həyat yaşamının istənilən formada təmin edən və onları axirət dünyasının tükənməz nemətləri içərisində əbədi qurtuluşa çağıran amildir.

Əl-Fərabi gələcək cəmiyyət haqqında konsepsiyasında qeyri-məqsədli utopiyalara, yəni onun fəzilətli utopiyasından fərqlənən, onunla ziddiyyət təşkil edən şəhərlərə də öz münasibətini bildirir və onları dörd qrupa bölürdü.

Dissertasiyada həmin utopiya qrupları haqqında məlumat verilir və onlar cahillik utopiyası pozğunluq utopiyası, dəyişgən utopiya və gümrahlaşdırırdı, utopiya kimi qruplaşdırılır.

Əl-Fərabinin inamına görə utopik cəmiyyətin başçısı filosof və peyğəmbər xislətli insan olamlıdır. Buradan belə nəticəyə gələ bilərik ki, əl-Fərabinin utopik cəmiyyət başçısına ispad verdiyi məziyyətlər əslində onun təsəvvüründə fəlsəfə və şəriətin bir-birinə yaxınlaşdırılması və son nəticədə vahid bir sistemdə birləşdirilməsi anlamında başa düşünülməlidir.

Əl-Fərabinin sosial baxışları sistemində onun siyasət anlayışına münasibəti xüsusi əhəmiyyət kəsb edir. Əl-Fərabiyə görə siyasət anlayışı müxtəlif mənalarda: tədbir, ölkə idarəçiliyi, müşahidə, xalqın işlərinin sahmana salınması, millətçilik və s. anlamlarda işlənsə də, terminologiya baxımından hər bir düşüncə sahibi və mütəfəkkirə görə fərqli mənalarda

izah olunur. Məsələn, dindarlar siyasətə insanın ilahi ilə əlaqəsi baxımından tərif verir. Materialist filosofun təbirincə isə siyasət baxışların hər hansı bir fövqəltəfəkkürdən kəsilməsi deməkdir.

Dissertasiyada qeyd olunur ki, əl-Fərabi siyasət anlayışının başa düşülməsində razılaşmanın, yekdil bir fikrin olmamasının iki səbəbdən irəli gəldiyini söyləyir: birincisi, insanların siyasət anlayışının müxtəlif mənalarda başa düşülməsindən, ikincisi, siyasətin digər mövzulardan asanlıqla seçilə bilməsindən.

Əl-Fərabi siyasətin göstəricilərini açıqlamaqla yanaşı onun spesifik və ümumi mənalarını da müəyyənləşdirir. Onun təbirincə siyasəti ümumi mənası "mülki fəlsəfədə", "mülki elmdə", "humanitar elmdə", "əməli fəlsəfədə" açıqlanır. Əl-Fərabi "Əl-siyasət" kitabında bu münasibətlə yazır: "Siyasət əməllərin, rəftarların, insanların zahiri və batini durumlarını araşdırılması üçün faydalı metoddur"[10]. Onun təbirincə siyasətin spesifik mənası isə "mülki siyasətə", "sivil heysiyyətə", "mülki heysiyyətə" şamil edilir. Siyasət anlayışına münasibətdə bu nöqteyi-nəzərdən çıxış edən əl-Fərabi onu "əməli-hikmət" mənasında deyil, "modern tədbir" və "siyasətçilərin əməllərinin məhsulu" kimi mənalandırır. "Əl-Siyasət" kitabında o, yazır: "Siyasət hakimlərin əməllərindən ibarətdir və həmin əməllər cəmiyyətin qorunub saxlanmasına doğru istiqamətlənir". Əl-Fərabinin bu sözlərindən anlaşılır ki, özünün spesifik mənasına görə siyasəti yalnız hakimlərin əməl və fəaliyyətinə aid etmək olar. Buna görə də onu siyasi iqtidar kimi qəbul etmək daha doğrudur. Siyasət elminin tərifi əl-Fərabinin dilində belə səslənir: "Siyasət elə bir elmdir ki, siyasətlər və rəiyyətadamları ondan yardım almaqla bilik və fəzilətlərə nail olurlar.

Dissertasiyada belə bir məqam xüsusi qeyd edilir ki, əl-Fərabinin siyasi baxışlarını öyrənərkən onun yaradıcılığına, siyasi şüuruna Platon və Aristotelin təsirini görməmək mümkün deyil: əl-Fərabi Platonun siyasi nəzəriyyələrindən təsirlənmiş, müəyyən mənada Aristotel nəzəriyyələrini rəhbər tutmuşdur. Lakin əl-Fərabinin siyasi baxışları üçün əsas və mühüm məqam bundan ibarətdir ki, antik yunan filosofları kimi o da fəzilətli utopiyanın misal və nümunə üzündən yaratmış və utopiya sakinlərinin sosial təbəqələrinin mövcud aləmlə uyğunlaşdırmağa çalşmışdır.

Dissertisiyada əl-Fərabinin siyasi baxışları üzrə tədqiqatdan belə nəticə çıxarılır ki, əl-Fərabi siyasətçilərin vəzifəsini işlərin yalnız ideoloji əsaslarda görülməsində və onların insanların əmək haqqına dair konkret məsləhətlər görülməsində görmüşdür.

[10] Əl-Fərabi. El-siyasetil-medeniyye. Tehran, 1360. S. 74.



Dissertasiyanın "Nəticə" hissəsində tədqiqata yekun vurulur, problemin gələcək perspektivləri ilə bağlı bir sıra tövsiyyələr söylənilir.

Dissertasiyanın əsas məzmunu müəllifin çap etdirdiyi aşağıdakı məqalələrdə öz əksini tapmışdır:


1. Əl-Fərabinin metafizikası haqqında// Tarix və onun problemləri jurnalı, Bakı, 2010, №2, s. 29-33.
2. Farabinin varlıq haqqında təlimləri// Tarix və onun problemləri jurnalı, Bakı, 2010, №3, s. 32-35.
3. Farabinin cəmiyyət haqqında baxışları// Dünyaya Baxış jurnalı, Bakı, 2010, №1, s. 17-23.
4. Əbu Nəsr Əl-Fərabinin ictimai-etik görüşləri// Bakı Universitetinin Xəbərləri, Bakı, 2013, №4, s. 88-89.
5. Əl-Fərabinin sosial tərəqqi, gələcək cəmiyyət və dövlət haqqında baxışları BAU// Sivilizasiya jurnalı, Bakı, 2014, №2, s. 8-18.
6. Əbu Nəsr Əl-Fərabinin həyatı və yaradıcılığı BDU// İlahiyyat Fakültəsi, Elmi Məcmuəsi, Bakı, 2012, №18, s. 239-248.
7. Вопросы бытия и мышления в творчестве Аль-Фараби Исторические, философские, политические и юридические науки, культурология и искусствоведение// Вопросы теории и практики, 2012, №7(21), Часть I, Тамбов, 2012, с. 135-138.
8. Социально-политические взгляды Абу Наср аль-Фараби Социально-экономические, социально-политическое и социокультурное развитие регионов/ Материалы II международной научно-практической конференции. 25-26 октября, Пенза-София Семей, 2012, с. 20-22.
9. Абу Наср аль-Фараби о проблемах бытия Религия-наука-общество: проблемы и перспективы взаимодействия/ Материалы II международной научно-практической еонференции. 1-2 ноября, Пенза-Саратов-Семей, 2012, с. 29-31.

Махбуб Гулам оглу Муждачу

## Общественно-политические взгляды Абу Наср аль Фараби

Резюме

Теоретико-идейное наследие восточных перипатетиков занимает значительное место в духовной культуре человечества. Исследователи совершенно справедливо полагают, что их философское наследие в целом составляет необходимую часть развития мировой цивилизации, являясь неотъемлемой частью мировой истории философии. Хотя одним из первых представителей восточного перипатетизма был арабский философ Аль Кинди, создателем наиболее совершенной системы данного учения стал Абу Наср аль Фараби (870-950). Этот великий философ, чей творческий гений был исключительно богатым и разносторонним, проявил свои таланты в таких сферах, как философия, этика, эстетика, политика, естествознание, логика, математика и астрономия.

Основной целью данной диссертационной работы является рассмотрение теоретико-философского наследия Аль Фараби в контексте восточного перипатетизма Средних веков, анализ его этических взглядов на основе его социально-политической концепции и, самое главное, - показать сущность этой концепции на основе анализа его произведений, в частности, таких понятий, как общество, социальный прогресс, политика, государство и т.д.

Диссертация состоит из введения, трех глав и заключения, выводов и списка использованной литературы.

В первой главе диссертации в историческом аспекте излагаются проблемы социально-политической среды, в которой формировалось мировоззрение Аль Фараби, его социально-этические взгляды.

Во второй главе диссертации рассматриваются такие проблемы, как концепция бытия Аль Фараби, идеи, связанные с его отношением к исламской философии, а также его рассуждения о метафизике.

В третьей главе диссертации в системном порядке излагаются идеи Аль Фараби об обществе, социальном прогрессе и будущем развитии человечества.

В разделе «Заключение» подводятся итоги исследования, формулируются основные теоретические и практические выводы, даются соответствующие предложения и рекомендации относительно исследуемой проблемы.



Mahboub Gholam oghlu MOZHDEHJOU

## Abu Nasr al-Faraby’s public and political views

Summary

In the spiritual and cultural history of humanity the theorotical and ideal legacy of Middle century of Eastern peripatetists occupy great place. The researches rightly call them as important stage of philosophical legacy of world civilization wholly and important circle of the world’s philosophical history as well. Though the first representative of Eastern peripatetism was arabian philosopher al-Kindi, the perfect creator of this training system was Abu Nasr al-Faraby (870-950). This philosopher with great and rich thinkings occupies an important place in the fields of philosophy, ethics, aesthetics, policy, nature study, logic, math and astronomy as well. The main aim of the thesis is to pay special attention al-Faraby’s theorotical and philosophical legacy on the context of Middle Age Eastern peripatetism, to give short characteristic features about his political views and mainly on the base of analyses of al-Faraby’s plays to investigate his theorotical considerations on society, social progress and policy about the state as well.

The presented thesis consists of introduction, three chapters, conclusion and the list of biblography. In the introduction part the actuality of the theme is based, its working style, the aim of the investigation and its duty is determined, scientific innovations, their methodological bases and theoretical and practical importance are explained as well.

In the first chapter of the thesis the historical view on public and political atmosphere of al-Faraby’s worldview is taken into account and the analyses of his public and ethic views are also given.

In the second part of the thesis al-Faraby’s thinkings about islamic phiolosophy and metophysics occupy special place. The systematic analyses of al-Faraby’s views on society, social progress and about future society are also given in this chapter.

In the conclusion part the investigation is summerized and some advice connected about future perspectives are also put forward.

Format 60x84 $^{1}/_{16}$
AMEA-nın mətbəəsində çap olunub.
Sayı: 100 nüsxə.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ**

*На правах рукописи*

**МАХБУБ ГУЛАМ МУЖДЕЧУ**

# ОБЩЕСТВЕНО-ПОЛИТИЧЕСКИЕ ВЗГЛЯДЫ АБУ НАСРА АЛЬ-ФАРАБИ

7207.01 – “Социальная философия”

**АВТОРЕФЕРАТ**

диссертации на соискание ученой степени доктора философии по философии

БАКУ– 2018